AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

*Əlyazması hüququnda*

**ELMİR ZAKİR oğlu ƏLİYEV**

# ÇAR RUSİYASININ İŞĞALINDAN SONRA ŞİMALİ AZƏRBAYCANIN TARİXİ ƏRAZİ SİSTEMİNDƏ APARILAN DƏYİŞİKLİKLƏR (XIX-XX əsrin əvvəlləri)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdimedilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI-2018**

*Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
Əməkdar elm xadimi,
Dövlət mükafatı laureatı,
AMEA-nın həqiqi üzvü **Y.M.Mahmudov**

**Elmi məsləhətçi:**
Tarix üzrə fəlsəfə doktoru, dosent **H.N.Həsənov**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **K.K.Şükürov**
Tarix üzrə elmlər doktoru, professor **Q.Ə.Əliyev**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix"kafedrası.

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – Vətən tarixi, 5502.01 – Ümumi tarix, 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının "___" _________2018-ci il tarixli iclasında saat ____-da keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 31

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "_____"___________2018-ci ildə göndərilmişdir.

D.01.161 Dissertasiya Şurasının
elmi katibi tarix üzrə fəlsəfə doktoru, dosent **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XIX-XX əsrin əvvəlləri Şimali Azərbaycan tarixinin ən keşməkeşli dövrlərindən biridir. XIX əsrin əvvəllərində Azərbaycan torpaqları qanlı çarpışmalar meydanına çevrilmiş, yadelli işğalçıların basqınları nəticəsində çoxsaylı tarixi abidələrimiz dağıntılara məruz qalmış, neçə-neçə kənd və şəhərlərimiz yandırılaraq məhv edilmişdir. Şimali Azərbaycanın Rusiya tərəfindəni işğal olunması, Naxçıvan və İrəvan xanlıqları ərazisində "Erməni vilayəti"nin yaradılması, sonralar İrəvan şəhəri və ətrafındakı ərazilərin ermənilərə, Borçalı və Sığnağın Gürcüstana, Dərbəndin isə Dağıstana verilməsi ilə nəticələnmişdir.

Tədqiq olunan mövzu Azərbaycan tarixinin öyrənilməsi zəruri olan mühüm problemlərindən biridir. Belə ki, XIX-XX əsrlər tarixinin dərindən araşdırılması, XIX-XX əsrin əvvəllərində çar Rusiyasının Şimali Azərbaycanın tarixi ərazilərində həyata keçirdiyi inzibati-ərazi dəyişiklikləri probleminin dərindən tədqiqi öz aktuallığını qoruyub saxlamışdır. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşündə Azərbaycan tarixinin dərindən və obyektiv öyrənilməsi zəruriliyinə diqqəti cəlb edərək göstərirdi ki, bizim tariximiz – həm qədim tariximiz, həm də son dövrlərin, yəni XIX-XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb. Tarixçilərin yadındadır ki, mən alimlərlə dəfələrlə görüşmüşdüm, hər dəfə də öz narahatlığımı bildirmişdim. O, Azərbaycan tarixinin obyektiv şəkildə öyrənilməsi ilə bağlı tarixçilər qarşısında konkret vəzifələr qoyaraq vurğulayırdı: "Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, azərbaycanlılıq hissini yüksəldərik. Müstəqillik dövründə torpaqlarımızı müdafiə etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bu, çox gərəklidir, lazımdır".[1]

Bəhs olunan dövrdə Şimali Azərbaycan ərazisində inzibati-ərazi dəyişiklikləri probleminin öyrənilməsi, müasir dövrdə torpaqlarımızın 20%-nin

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. İyun 1993 - may 1994. I kitab. Bakı: Azərnəşr, 1997, s. 155-156.

işğal altında olduğu bir vaxtda böyük elmi və siyasi aktuallıq kəsb edir. Dissertasiya işində Rusiya işğalından əvvəl Şimali Azərbaycanın bütün bölgələrində azərbaycanlıların çox böyük əksəriyyət təşkil etmələri, işğaldan sonra bu əraziyə ermənilərin köçürülməsi hesabına onların sayının süni surətdə artırılması məsələsinin işıqlandırılmasına mühüm diqqət yetirilmişdir. Bu problemin araşdırılmasının aktuallığı həm də ondan ibarətdir ki, bu faktların əldə olunması həm ermənilərə qarşı informasiya müharibəsində, həm Azərbaycan diasporunun fəaliyyətində, həm də Azərbaycan Respublikası nümayəndələrinin iştirak etdikləri çoxsaylı beynəlxalq görüş və tədbirlərdə erməni lobbisinə tutarlı cavabın verilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Dissertasiya işinin əsas məzmununu XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycan bölgəsində aparılmış inzibati-ərazi dəyişiklikləri problemi təşkil etsə də, burada həmin problemin kökündə duran digər məsələlərə də toxunulmuşdur. Belə ki, Şimali Azərbaycan xanlıqlarının Rusiya işğalçılarına qarşı mübarizəsi, rus işğalı və ondan sonrakı dövrdə bölgədə tətbiq olunan inzibati idarəçilik işi tarixinin öyrənilməsi məsələləri də qarşıya qoyulan vacib məqsədlərdəndir.

İstər çar Rusiyası, istərsə də sovet imperiyası dövründə yazılan əsərlərdə tariximiz təhrif olunur, Şimali Azərbaycan xanlıqlarının, guya ki, könüllü surətdə Rusiyaya birləşməsi kimi saxta iddialar ortaya qoyulurdu. Lakin əslində ermənilərin satqınlığı və ikiüzlülüyü kimi riyakar əməllərindən istifadə edən ruslar, torpaqlarımızı zor gücünə işğal edərək, öz imperiyalarının tərkibinə qatmışdılar. Deməli, müasir dövrdə milli tarixşünaslığımızda yazılan digər əsərlərdə olduğu kimi, dissertasiya işində də sovet totalitar rejimindən qalmış "Şimali Azərbaycanın Rusiyaya birləşməsi" termini "Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunması" termini ilə əvəz olunmuşdur.

Dissertasiya işinin aktuallığını artıran və çağdaş Azərbaycan tarix elmi üçün böyük əhəmiyyətə malik olan daha bir məqam da ondan ibarətdir ki, burada çar hökumətinin milli-ayrıseçkilik siyasətinə uyğun olaraq, onun Şimali Azərbaycan bölgələrində ayrı-ayrı vaxtlarda tətbiq etdiyi müxtəlif idarəçilik formaları – komendant idarəçiliyi, mülki idarəçilik, polis idarəçiliyi, hərbi-xalq idarə üsulu, hərbi-polis idarəçiliyinin xüsusiyyətləri təhlil olunmuş və həmin idarəçilik formalarının həyata keçirilməsinin Şimali Azərbaycanın öz ənənəvi inzibati-ərazi və idarəçilik sisteminin bilərəkdən məhv olunmasına gətirib çıxardığı göstərilmişdir.

Beləliklə, təqdim olunan dissertasiya işində Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalından sonra tarixi ərazi sistemində aparılan dəyi-

şikliklərin tədqiqi nəzərdə tutulmuşdur. Bu zaman sözügedən problemin iki əsas süjet xətti qeyd olunmalıdır: 1. İşğal olunmuş Şimali Azərbaycanda milli-müstəmləkəçilik siyasətini həyata keçirmək üçün çar hökumətinin Rusiyanın daxili quberniyalarında tətbiq etdiyi inzibati-ərazi sistemindən istifadə etməsi; 2. Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ bölgələrinə ermənilərin köçürülməsi ilə Osmanlı dövləti və Qacarlar İranı ilə həmsərhəd olan ərazilərdə çar hökumətinin özünə xristianlardan ibarət etnik dayağı təşkil etməsi və gələcəkdə yaradılacaq erməni dövlətinin əsasını qoyması.

**Tədqiqatın xronoloji çərçivəsi.** Təqdim olunan tədqiqatın xronoloji çərçivəsinə gəldikdə, biz bu məsələdə çar Rusiyasının Şimali Azərbaycan xanlıqlarını işğal etdikdən sonra burada həyata keçirdiyi inzibati ərazi dəyişiklikləri XIX-XX əsrin əvvəllərinə kimi izləmişik. Haqqında bəhs etdiyimiz Şimali Azərbaycanın tarixi ərazi sistemində çar Rusiyasının həyata keçirdiyi dəyişikliklər xronoloji baxımdan mahiyyətcə bir-birindən fərqlənən dörd mərhələyə ayrılır: 1. 1801-ci ildən 1828-ci ilə qədər davam edən Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə xanlıqların Rusiyaya birləşdirilməsi ilə onların əyalətlərə çevrilməsi və komendant üsul-idarəsinin tətbiq olunmasından bəhs olunur. 2. 1828-1840-cı illəri əhatə edən ikinci mərhələdə Rusiya işğalından sonra İrəvan və Naxçıvan xanlıqları ərazisində “Erməni vilayəti”nin təşkil olunması, ermənilərin bu ərazilərə köçürülməsi, müstəmələçilik əleyhinə baş verən milli-azadlıq mübarizəsindən danışılır. 3. 1840-cı ildən 1850-ci ilə qədər davam edən üçüncü mərhələdə Şimali Azərbaycan bölgəsində komendant üsul-idarəsinin ləğv edilməsi ilə quberniya və qəza inzibati-idarə sisteminin tətbiq edilməsindən bəhs olunur, bu idarəçilik sisteminin Rusiyanın daxili quberniyalarındakı idarəçilik sisteminin eyni olduğu və çarizmin müstəmləkəçilik siyasətinin məqsədlərinə xidmət etməsi tutarlı faktlarla izah olunur. 4. XIX əsrin ikinci yarısından 1917-ci il fevral inqilabına qədər davam edən dördüncü mərhələdə isə Şimali Azərbaycanda yeni inzibati-ərazi dəyişikliklərin aparılması, quberniyadaxili və qəzadaxili baş verən dəyişikliklər öz əksini tapmışdır.

1801-1828-ci illərdə Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının gedişində işğal olunmuş xanlıqların ərazisində komendant üsul-idarəsi tətbiq olunsa da, Rusiyaya qarşı silahlı müqavimət göstərməmiş xanlara aldadıcı vədlər verilməklə, öz daxili idarəçilik hüquqlarını saxlamaq kimi saxta hüquq verilmiş, lakin bir qədər sonra, yəni əsasən XIX əsrin 20-ci illərində xanlıqlar bir-birinin ardınca tədricən ləğv olunmuş, Şimali Azərbaycan xanlıqlarının əyalətlərə çevrilməsi prosesi başa çatdıqdan sonra onlar öz daxili idarəçilik

hüquqlarından da məhrum olmuşdular.

1828-ci ilin fevralında Rusiya ilə Qacarlar İranı arasında imzalanan Türkmənçay müqaviləsindən sonra işğal olunmuş İrəvan və Naxçıvan xanlıqları ərazisində qondarma "Erməni vilayəti" yaradılmış, Qacarlar İranı və Osmanlı imperiyası ərazisindən ermənilərin kütləvi şəkildə bu vilayətə köçürülməsi hesabına azərbaycanlıların buradakı xüsusi çəkisi süni surətdə azaldılmış, Şimali Azərbaycanın bu əzəli torpaqlarında gələcək erməni dövlətinin yaradılmasının təməli qoyulmuşdur.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunmasının gedişində və işğaldan dərhal sonra burada tətbiq olunan komendant üsul-idarəsi çarizmin müstəmləkəçilik siyasətinin tərkib hissələrindən biri olsa da, bu idarəçilik sistemi çarizmin maraqlarına tam surətdə cavab vermədiyi üçün yeni idarəçilik üsulunun tətbiq olunması zəruriliyi yaranırdı. Bunun nəticəsində 1840-cı ildə komendant üsul-idarəsi ləğv olunmuş və Şimali Azərbaycanda quberniya və qəza inzibati-idarə sistemi tətbiq olunmuşdur. Həmin vaxt "Erməni vilayəti"nin ləğv edilməsi ilə İrəvan və Naxçıvan, eləcə də Şimali Azərbaycanın digər bölgələri müxtəlif qəza və quberniyaların tərkibinə verilərək, parçalanmış vəziyyətə düşmüşdür.

XIX əsrin ikinci yarısından 1917-ci il fevral inqilabına qədər olan dövrdə Şimali Azərbaycanın müxtəlif bölgələrində yeni inzibati-ərazi dəyişiklikləri baş vermiş, daxili idarəçilik sistemində Qafqaz canişinliyi və Bakı şəhər rəisliyi kimi orqanların təsiri altında müxtəlif idarəçilik sistemləri – mülki, hərbi, polis, inzibati-polis idarəçilik sistemləri mövcud olmuşdur. Bakı şəhər idarəsi və Bakı şəhər Dumasının, habelə digər şəhər dumaları və idarələrinin fəaliyyəti bu dövrə təsadüf edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycan tarixşünaslığında bölgəmizin inzibati idarəçilik sistemi ilə bağlı bir sıra əsərlər[2] ərsəyə gətirilib, bəhs olunan mövzu ayrı-ayrı aspekt və süjetlərin işıqlandırılması baxımından tədqiqatçıların diqqətini cəlb etsə də, çar Rusiyasının işğalından sonra Şimali Azərbaycanın tarixi ərazi sistemində baş verən dəyişikliklərə həsr olunmuş xüsusi elmi əsər yoxdur. Bəhs olunan mövzu Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı ilə bilavasitə sıx bağlı olduğundan, tədqiq edilən dövr ilə

[2] Мильман А.Ш. Политический строй Азербайджана в XIX – начале XX веков. Баку: Азербайджанское Государственное Издательство, 1966; İsayev Ə. Azərbaycanda inzibati idarəçilik (XIX-XX əsrin əvvəlləri). Bakı: Mütərcim, 2015.

məşğul olan bir sıra mütəxəssislərin əsərləri də[3] tədqiqata cəlb edilmişdir. Bundan başqa rus işğalı dövrü ilə bağlı yazılan əsərlər arasında Kürəkçay müqaviləsinin imzalanması ilə əlaqədar AMEA A.A.Bakıxanov Tarix İnstitutunun direktoru, professor Y.M.Mahmudovun rəhbərliyi altında İnstitutun əməkdaşları tərəfindən ərsəyə gətirilən kollektiv əsəri də[4] xüsusi olaraq qeyd etmək vacibdir.

Tədqiqat işində 1917-ci il fevral inqilabından əvvəlki tarixşünaslığa aid olan bir sıra əsərlərdən də[5] istifadə olunmuşdur ki, onlarda da əsas etibarilə Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı ilə bağlı məlumatlara rast gəlirik.

Tədqiq olunan problemlə bağlı sovet dövrü tarixşünaslığında da bir sıra əsərlər[6] ərsəyə gətirilmişdir ki, onların arasında da A.Ş.Milmanın əsəri sovet

---

[3] Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX – начале XX вв.) Баку: Алтай, 1999; Məmmədov Ə. Şimal-Qərbi Azərbaycan Zaqatala dairəsi. Bakı: Adiloğlu, 2001; Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə. Bakı: Elm, 2004; Xəlilli X.D. Qarabağ: etnomənəvi inkişaf tarixi (Ən qədim dövrdən 1920-ci ilə qədər). Bakı: Günəş, 2006; Süleymanov M.S. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı: Hərbi nəşriyyat, 1997; Yenə onun: Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: Hərbi nəşriyyat, 2008; Тагиев Ф.А. История города Баку в первой половине XIX века (1806-1859). Баку: Элм, 1999; Гусейнзаде Р.А. Кавказ и армяне. Баку: Апострофф, 2014.

[4] Гарабаг: Кюрекчайский договор – 200. Баку: Тахсил, 2005.

[5] Шопен И. Исторический памятник состояния Арянской области в эпоху ее присоединения к Российской империи. СПб.: В типографии Императорской Академии Наук, 1852; Щербинин М.П. Воспоминания // Русский архив. М.: 1876; Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. Том I, СПб: 1887; Yenə onun: Утверждение русского владычества на Кавказе. т. I. Тифлис: Типография Я.И.Либермана, 1901; Эсадзе С. Историческая записка об управлении Кавказом. В 2-х томах. т. 1. Тифлис: Типография Гуттенбергь, 1907.

[6] Колониальная политика российского царизма в Азербайджане в 20-60-х гг. XIX в., ч. I. Феодальные отношения и колониальный режим, 1827-1843 гг. М-Л.: Изд-во АН СССР, 1936; Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку: Изд-во АН Азербайджанской ССР, 1958; Мильман А.Ш. Политический строй Азербайджана в XIX – начале XX веков. Баку: Азербайджанское Государственное Издательство, 1966; Hüseynzadə Ə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1967; İsmayılov M.Ə. Şəki (tarixi oçerk). Bakı: Azər-

dövründə yazılan digər əsərlərdən fərqli olaraq bəhs olunan problemə daha yaxındır. Bu əsərin sovet ideologiyasının təsiri altında ərsəyə gətirilməsinə baxmayaraq, onun ən böyük dəyəri ondan ibarətdir ki, burada Rusiya işğalının ilk mərhələsindən başlayaraq Şimali Azərbaycanın rus-daşnak bolşevikləri tərəfindən işğal olunmasına qədər olan dövrdə bölgənin inzibati-ərazi və idarəçilik sistemində baş verən dəyişikliklər daha geniş planda öz əksini tapmışdır.

A.Ş.Milmanın yuxarıda göstərilən əsəri istisna olmaqla çar Rusiyasının işğalından sonra Şimali Azərbaycanın ənənəvi ərazi sistemində baş verən dəyişikliklər barədə məlumatlara daha çox müasir Azərbaycan tarixşünaslığında rast gəlirik. Bu baxımdan S.Budaqova, N.Cəfərli, F.Əliyev və M.Əliyev, E.Qarayev, Y.M.Mahmudov və K.K.Şükürov, V.Z.Piriyev, F.Abbasov, Q.N.Malaxova, E.B.Muradəliyeva və V.M.Muxanovun əsərlərində[7] bəhs olunan dövrdə Şimali Azərbaycanda tətbiq olunmuş müxtəlif inzibati idarəçilik sisteminin xüsusiyyətlərindən danışılır və bunun bölgənin ənənəvi ərazi sistemində hansı fəsadlara gətirib çıxardığı tutarlı faktlarla izah olunur.

Qarabağ regionunun Zəngəzur qəzasının tarixi coğrafiyasını, inzibati-ərazi bölgüsünü və sosial-demoqrafik vəziyyətinin öyrənilməsində "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası"[8] əsərinin əhəmiyyəti olduqca böyükdür. B.Budaqovun redaktorluğu ilə nəşr olunan bu əsərdə Zəngəzur qəzasının tarixi coğrafiyası, inzibati-ərazi bölgüsü, bu bölgədə yaşayan əhalinin etnik tərkibi, həmçinin demoqrafik vəziyyəti haqqında qiymətli məlumatlar toplanmışdır.

Bundan başqa müasir Azərbaycan tarixşünaslığında bəhs olunan problemlə bağlı yazılan əsərlər arasında AMEA A.A.Bakıxanov Tarix İnstitutunun

---

baycan Dövlət Nəşriyyatı, 1982; Musayev M.Ə. XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti (1900-1917-ci illər). Bakı: Elm, 1975.

[7] Мурадалиева Э.Б. Города Северного Азербайджана во второй половине XIX века. Баку: Изд-во Бакинского Университета, 1991; Budaqova S.İ. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsi). Bakı: Elm, 1995; Cəfərli N. Lənkəran (tarixi oçerk). Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1995; Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1996; Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006; Mahmudov Y.M., Şükürov K.K. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2009; Qarayev E.T. İrəvan xanlığı (1747-1828). Bakı: Avropa, 2010; Yenə onun: Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu – XIX yüzilliyin ortalarında). Bakı: Mütərcim, 2016;

[8] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gənclik, 1995.

direktoru, akademik Y.M.Mahmudovun bilavasitə rəhbərliyi altında, İnstitutun əməkdaşları tərəfindən ərsəyə gətirilən İrəvan xanlığının tarixi ilə bağlı kollektiv monoqrafiyanı[9] da xüsusi olaraq vurğulamaq lazımdır. Bu monoqrafiyada Rusiya işğalı dövründə İrəvan xanlığının düşmənlərə qarşı qəhrəmancasına mübarizəsi, İrəvan qalası üzərinə rus qoşunlarının dəfələrlə hücumundan sonra, erməni satqınlığı və xəyanətkarlığı nəticəsində qalanın işğalçılar tərəfindən alınması, işğal olunmuş İrəvan və Naxçıvan xanlıqları ərazisində "Erməni vilayəti"nin yaradılması, Osmanlı dövləti və Qacar İranından ermənilərin bu ərazilərə köçürülməsi, işğal dövründə və işğaldan sonra İrəvanda tətbiq olunan inzibati idarəçilik sistemi və digər məsələlər öz əksini tapmışdır.

Qarşıya qoyulan problemin müəyyən tərəflərini tədqiq etmək, o cümlədən Azərbaycan xanlıqlarının xarici siyasəti, xanlıqların çar Rusiyası tərəfindən işğalında erməni amilindən istifadə edilməsi, ermənilərin Qacarlar İranı və Osmanlı imperiyasından məqsədli şəkildə Şimali Azərbaycan torpaqlarına köçürülməsi və s. məsələlərdə professor T.Mustafazadənin,[10] G.Nəcəflinin[11]

---

[9] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Çaşıoğlu, 2009.

[10] Mustafazadə T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002; Yenə onun: Quba xanlığı. Bakı: Elm, 2005; Yenə onun: Qarabağ xanlığı. Bakı: "Sabah", 2010; Yenə onun: Azərbaycan-Rusiya münasibətləri. XVIII əsrin II yarısı-XIX əsrin əvvəllərində. Bakı: Şərq-Qərb, 2013; Yenə onun: Avropa diplomatiyasında "erməni məsələsi" və ya Türkiyəni bölüşdürmək planı (Rusdilli sənədlər əsasında). Bakı: "Turxan NPB", 2015; Yenə onun: "Erməni məsələsi"ndən erməni terrorizminə. Bakı: "Turxan NPB", 2016.

[11] Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı). Bakı: "Nurlan", 2002; Yenə onun; Çar Rusiyasının Azərbaycan ərazisində erməni dövləti yaratmaq siyasəti (XIX əsrin birinci yarısı) // "XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" mövzusunda beynəlxalq elmi konfransın xüsusi buraxılışı. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun "Elmi Əsərlər"i, 2013-cü il, 44, 45, 46, 47-ci cild, s. 137-142; Yenə onun: Ermənilərin İrandan Şimali Azərbaycan torpaqlarına məqsədyönlü şəkildə köçürülməsi (yeni qaynaqlar işığında) // Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), №03, Bakı, 2015. s. 68-77; Yenə onun: Ermənilərin Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına məqsədyönlü şəkildə köçürülməsi (yeni qaynaqlar işığında) // Geo-Strategiya, №06(30) noyabr-dekabr, Bakı, 2015. s.68-77; Yenə onun: Первоначальные факторы, способствовавшие попыткам создания армянского государства на территории Азербайджана //«Кавказ и Мир», Тифлис: 2013, № 16, с. 81-86.

əsərlərindən də yararlanmışıq.

Dissertasiya işində tarix elmi üzrə bir sıra mütəxəssislərin müxtəlif elmi jurnallarda nəşr olunmuş silsilə məqalələrindən[12] də istifadə olunmuşdur ki, hə-

---

[12] Mahmudov Y.M. XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri //"XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" mövzusunda beynəlxalq elmi konfransın xüsusi buraxılışı. AMEA Tarix İnstitutunun "Elmi Əsərlər"i, 2013-cü il. 44, 45, 46, 47-ci cild. s. 3-5; Əsədov N.C. Azərbaycanın Qarabağ bölgəsində Rusiyanın müstəmləkəçilik siyasətinin həyata keçirilməsində erməni amili (1813-1828-ci illər) //"Bakı Universitetinin Xəbərləri", Humanitar elmlər seriyası, № 1, 2011-ci il, s. 191-196; Hacıyev F.V. Borçalılar İkinci Rus-Qacar müharibəsində //"Bakı Universitetinin Xəbərləri", Humanitar elmlər seriyası, № 4, 2013-cü il, s. 143-149; Hüseyn F.A. İrəvan xanlığının işğalı və ermənilərin köçürülməsi Xətt-İ Hümayunlar işığında //"XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" mövzusunda beynəlxalq elmi konfransın xüsusi buraxılışı. AMEA Tarix İnstitutunun "Elmi Əsərlər"i, 2013-cü il. 44, 45, 46, 47-ci cild, s. 250-257; Quliyev C.Ş. Car-Balakən camaatlığı və Gəncə xanlığınının çar Rusiyası tərəfindən işğalı Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərində // "Bakı Universitetinin Xəbərləri", Humanitar elmlər seriyası, №1, 2011-ci il, s. 202-209; Yenə onun: Şəki və Şamaxı xanlıqlarının çar Rusiyası tərəfindən işğalı Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərində //"Bakı Universitetinin Xəbərləri", Humanitar elmlər seriyası, № 3, 2012-ci il, s. 156-162; Məcidova L.Q. XIX-XX əsrin əvvəllərində Bakı quberniyası Lənkəran qəzasının inzibati-ərazi idarəçiliyinin tarixinə dair //16 noyabr 2011-ci ildə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu və Azərbaycan Tarix Qurumunun təşkilatçılığı ilə"Azərbaycan Respublikası: uğurlar və perspektivlər" mövzusunda keçirilən beynəlxalq elmi konfransın materialları, Bakı: 2012, s. 240-241; Nərimanlı Ə. Qarabağ xanlığının Rusiyaya tabe edilməsinə dair // "XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" mövzusunda beynəlxalq elmi konfransın xüsusi buraxılışı. AMEA Tarix İnstitutunun "Elmi Əsərlər"i, 2013-cü il. 44, 45, 46, 47-ci cild, s. 173-176; Selma Yel. Ədirnə müqaviləsinə əsasən Türkiyədən Azərbaycana ermənilərin köçürülməsi //"XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" mövzusunda beynəlxalq elmi konfransın xüsusi buraxılışı. AMEA Tarix İnstitutunun "Elmi Əsərlər"i, 2013-cü il. 44, 45, 46, 47-ci cild, s. 12-20; Seyidova S.M. "Erməni məsələsi"nin yaranmasının ilkin səbəbləri //"Bakı Universitetinin Xəbərləri", Humanitar elmlər seriyası, № 4, 2013-cü il, s. 105-110; Ахмедов Б. Заселение армянами округов Гейче и Деречичек после их захвата царской Россией (1828-1829 годы) //Azerbaijan & Azerbaijanis. 2008, № 5-8, p. 128-132; Гафарова З.А. Об этнодемографии г. Иревана и влиянии на нее Первой Мировой войны //Материалы международной научной конференции «Первая Мировая Война и Азербайджан». Специальный выпуск. Труды Института

min məqalələrdə də tədqiq olunan problemə dair müxtəlif məsələlər işıqlandırılmışdır. Bu məqalələrdə Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı, Rusiya işğalında erməni amilinin rolu, bölgədə tətbiq olunan inzibati idarəçilik sistemi, ənənəvi ərazi sistemində aparılan dəyişikliklər və digər məsələlər öz əksini tapmışdır. Həm də bu məqalələrin əksərilyyətinin gənc mütəxəssislər tərəfindən ərsəyə gətirilməsi gənc nəsil arasında da vətənpərvərlik hissinin yüksək olduğunu göstərir və müasir Azərbaycan tarixşünaslığının yeni məlumatlarla zənginləşməsində böyük əhəmiyyətə malikdir.

Bundan başqa, Azərbaycan tarixinə dair ümumiləşdirilmiş əsərlərdə[13] də Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunması, işğaldan sonra bölgədə tətbiq olunan inzibati idarəçilik sistemi, ənənəvi ərazi sistemində baş verən dəyişikliklər və s. məsələlər öz əksini tapıb.

**Tədqiqatın mənbə bazası.** Dissertasiyanın tədqiqi zamanı mövzunun öyrənilmə dərəcəsində qeyd etdiyimiz tarixi ədəbiyyatlarla yanaşı çap edilməmiş və eyni zamanda çap edilmiş arxiv materiallarından istifadə olunmuşdur. Məhz istifadə olunmuş çeşidli qaynaqlardan əldə etdiyimiz məlumatların təhlili bizə problemi dolğun şəkildə tədqiq etmək imkanı vermişdir. Əsərin başlıca mənbə bazasını Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin (ARDTA) müxtəlif fondlarının sənəd və materialları təşkil edir.

Bu fondlar əsasən bunlardır: 15-ci (Xalq-hərbi dairəsi nəzdində Qafqaz diyarının bölgələri üzrə silki-torpaq (soslovno-pozemelnıy) işlərinin qurtarmasına dair komissiya (Tiflis şəhəri),[14] 50-ci (Bakı quberniyasının şəhər işləri üzrə idarəsi,[15] 125-ci (Qafqaz canişininin Xalq Hərbi işləri üzrə dəftərxanası),[16] 202-ci (Bakı gömrükxanası),[17] 484-cü (Bakı şəhəri və Bakı quberniyası üzrə müvəqqəti general-qubernatorun dəftərxanası),[18] 866-cı (Zaqatala dairə

---

Истории НАН Азербайджана, 2014 год, том 48, 49, 50, с. 216-220; Нифталиев И.В. Переселение армян в Северный Азербайджан в трудах русских историков //Материалы международной научной конференции «Кавказские войны и их последствия в началеXIX века». Специальный выпуск. Труды Института Истории НАН Азербайджана, 2013 год. Том 44, 45, 46, 47, с. 157-162.

[13] Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı: Elm, 2000; Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900 - 27 aprel 1920). Bakı: Elm, 2001; Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı: 2009.

[14] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f. 15, s. 1, iş 56.

[15] ARDTA, f. 50, s. 1, iş 16.

[16] ARDTA, f. 125, s. 1, iş 223.

[17] ARDTA, f. 202, s. 1, iş 7.

[18] ARDTA, f. 484, s. 1, iş 1.

idarəsi)[19] və s. fondlar. Həmin arxivin adları çəkilən fondlarında 1828-ci il Türkmənçay sülh müqaviləsinin şərtləri, Zaqatala dairəsində tətbiq olunan inzibati idarəçilik sistemi, Şimali Azərbaycan qəzalarında sadəlşdirilmiş şəhər idarələrinin fəaliyyəti, Bakı şəhəri və qəzasında, habelə digər bölgələrdə baş qaldıran inqilabi hərəkata qarşı mübarizəni gücləndirmək məqsədilə Qafqaz canişininin həyata keçirdiyi tədbirlər və sair məlumatlar əks olunub.

Tədqiq etdiyimiz problemlə bağlı mühüm mənbə kimi A.P.Berje tərəfindən hazırlanaraq çap edilmiş Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının müxtəlif cildlərinə[20] daxil edilmiş sənədlərdən yararlanmışıq. Bu aktlardan Qafqazdakı rus orduları baş komandanlarının, hərbi hissə komandirlərinin müxtəlif xarakterli raportlarından, müxtəlif illərə dair hesabat və məruzələrində Azərbaycan xanlıqlarının işğalı gedişində ermənilərdən istifadə edilməsi, ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi və işğal olunmuş Azərbaycan torpaqlarında Erməni vilayətinin yaradılması ilə bağlı zəngin materiallar tədqiqata cəlb olunmuşdur.

Rusiya İmperiyası Qanunlarının tam küllüyyatı,[21] Rusiya İmperiyası

---

[19] ARDTA, f. 866, s. 1, iş 1.

[20] АКАК, т. I. (издан под ред. председателя комиссии А.Д.Берже), д.838, Тифлис: "Тип. Главного Управления Наместника Кавказского", 1866; АКАК, т. II. (издан под ред. председателя комиссии А.Д.Берже), Тифлис: "Тип. Главного Управления Наместника Кавказского", 1868; АКАК, т.VII. (издан под ред. председателя комиссии А.Д.Берже), Тифлис: "Тип. Главного Управления Наместника Кавказского", 1878; АКАК. т.Х. (издан под ред. председателя комиссии А.Д.Берже), Тифлис: "Тип. Главного Управления Наместника Кавказского", 1885.

[21] Полное собрание законов Российской империи (ПСЗРИ). Собр. первое, т. XXVII. СПб.: Тип. II-го отделения собственной его императорского величества канцелярии, 1830; ПСЗРИ. Собрание второе. Том XII. Отделение первое. 1837. СПб.: Типография II отделения Собственной Е.И.В.Канцелярии, 1838; ПСЗРИ. Собрание второе. Том XII. Отделение второе. 1837. СПб.: Типография II отделения Собственной Е.И.В.Канцелярии, 1838; ПСЗРИ. Собрание третье. Том XII. 1892. СПб.: 1895; ПСЗРИ. Собрание второе. Том XV. Отделение первое. 1840. СПб.: Типография II отделения Собственной Е.И.В. Канцелярии, 1841; ПСЗРИ. Собрание второе. Том XX. Отделение первое. 1845. СПб.: Типография II отделения Собственной Е.И.В. Канцелярии, 1846; ПСЗРИ. Собрание второе. Том XXI. Отделение первое. 1846, СПб.: Типография II отделения Собственной Е.И.В.Канцелярии, 1847; ПСЗРИ. Собрание второе.Том XXI. Отделение второе. 1846, СПб.: Типография II отделения

Qanunlarının tam məcmuəsi[22] təşkil edir. Bu sənədlərdə XIX əsrin əvvəlində Car-Balakən əhalisinin rus işğalçılarına qarşı mübarizəsi, ermənilərin Qacar İranından zorla Şimali Azərbaycan ərazilərinə köçürülməsi, 1828-ci ildə təşkil olunmuş qondarma "Erməni vilayəti"ndə azərbaycanlıların təzyiqlərə məruz qalmaları, Şimali Azərbaycanda quberniya və qəza inzibati-idarə sisteminin tətbiq olunması üçün müxtəlif layihələrin hazırlanması, quberniya və qəza inzibati-idarə sisteminin tətbiq olunmasından sonra Rusiyanın daxili quberniyalarında mövcud olan idarəçilik sistemi metodlarından istifadə olunması, XIX əsrin ikinci yarısında quberniya və qəza inzibati-idarə sistemində yeni dəyişikliklərin aparılması və digər məsələlərə dair qiymətli məlumatlar var.

XIX əsrin sonlarında Azərbaycanın müxtəlif quberniya və qəzalarında sosial-iqtisadi, siyasi və qismən də inzibati ərazi bölgüsündə baş verən dəyişiklikləri izləmək üçün qiymətli qiymətli mənbələrdən biri müxtəlif illərdə tərtib edilmiş "Qafqaz təqvimləri"ndə ("Кавказский календарь") əks olunan məlumatlardır.[23]

Türkmənçay müqaviləsindən sonra Azərbaycan torpaqlarının bir hissəsində çar Rusiyası tərəfindən yaradılmış "Erməni vilayəti"nin xəzinə əmlakı və gəlirləri üzrə idarəsinin keçmiş sədri, Rusiya imperator dəftərxanasında stats-məsləhətçi işləmiş İ.Şopen tərəfindən qələmə alınmış "Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə dair tarixi abidə" adlı əsəri[24] XIX əsrin əvvəllərində Azərbaycanın şimal-qərb bölgəsinin coğrafiyası, inzibati bölgüsü, idarəçilik sistemi, əhalisinin say və sosial tərkibi, dini inancları, burada yerləşən məscid, monastr və kilsələr,

---

Собственной Е.И.В.Канцелярии, 1847; ПСЗРИ. Собрание второе. Том XXIV. Отделение второе. 1849. СПб.: Типография II отделения Собственной Е.И.В. Канцелярии, 1850; ПСЗРИ. Собрание второе. Том XLII. Отделение второе. 1867. СПб.: Типография II отделения Собственной Е.И.В.Канцелярии, 1871.

[22] Свод законов Российской империи. Том II. Часть II. Особенные губернские учреждения. С-П.: Типография Второго Отделения Собственной Канцелярии, 1857.

[23] Кавказский календарь на 1850 год. (Издань по распоряжению Главноначальствующаго гражданской частию на Кавказе / Под ред. Е.Кондратенко). Тифлис: 1849; Кавказский календарь на 1855 год., Тифлис: 1854; Кавказский календарь на 1897 год., Тифлисъ: 1896.

[24] Шопен И. Исторический памятник состояния Арянской области в эпоху ее присоединения к Российской империи. СПб., В типографии Императорской Академии Наук, 1852.

təbii sərvətləri, əhalisinin məşğuliyyəti, dövlət vergiləri və s. haqqında geniş məlumatlar əldə etməyə imkan verir.

Qafqazın mülki işlər üzrə rəisi, general-adyutant knyaz Dondukov-Korsakovun tapşırığı əsasında E.Veydenbaum tərəfindən hazırlanan Qafqaza dair soraq kitabçasında Qafqaz vilayətinin sərhədləri, ərazisi, inzibati bölgüsü, əhalisinin sosial və etnik tərkibi nəzərdən keçirilib.[25]

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada istifadə olunan elmi ədəbiyyatın yuxarıda verilən qısa xülasəsi Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunmasından sonra bölgənin ənənəvi inzibati idarəçilik və ərazi sistemində qeyd etdiyimiz hər iki süjet xəttini ehtiva etməklə kompleks şəkildə öyrənilməsi zərurətini təkidlə ortaya qoyur. Təqdim olunan əsər bu sahədə mövcud boşluğu qismən də olsa doldurmaq məqsədini güdür. Qarşıya qoyulan əsas elmi məqsəd aşağıdakı vəzifələrin həllini şərtləndirir:

- Şimali Azərbaycan xanlıqlarının işğal edilməsinə səbəb olan amilləri açıb göstərmək, Rusiya işğalının gedişində erməni amilinin rolunu izah etmək;
- Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal edilməsinin gedişində burada tətbiq olunan komendant üsul-idarə formasının xüsusiyyətlərini açıb göstərmək, bu idarəçilik sisteminin Rusiya imperiyasının müstəmləkəçilik siyasətinin maraqlarına cavab verməsi amilini təhlil etmək;
- Rusiya işağlının gedişində və işğaldan sonra Şimali Azərbaycan xanlıqlarının əyalətlərə çevrilməsi prosesinin çarizmin bu bölgələrə (İrəvan, Naxçıvan, Qarabağ və başqa əyalətlərə) erməniləri köçürərək, özünə xristianlardan ibarət olan etnik dayağın yaratması məqsədinə xidmət etməsini elmi faktlarla izah etmək;
- Rusiya işğalından sonra İrəvan və Naxçıvan əyalətlərində qondarma “Erməni vilayəti”nin yaradılması, Qacar İranı və Osmanlı dövləti ərazilərindən ermənilərin bu vilayətə köçürülməsi hesabına gələcəkdə erməni dövlətinin yaradılmasının təməli qoyulması siyasətini özündə birləşdirən çarizmin müstəmləkəçilik məqsədlərini açıb göstərmək;
- Komendant üsul-idarəsinin Rusiyanın müstəmləkəçilik siyasətinin maraqlarına tam cavab verməməsi səbəbindən Şimali Azərbaycanda quberniya və qəza inzibati-idarə sisteminin tətbiq olunmasının, Rusiyanın daxili quberniyalarında tətbiq olunan inzibati idarəçilik formalarına uyğunlaşdırılmasının çarizmin müstəmələkəçilik siyasətinin maraqlarına xidmət etməsi amilini dəqiq

[25] Путеводитель по Кафказу. Составиль Е.Вейденбаум. Тифлис: 1888.

elmi faktlarla izah etmək;

- Quberniya və qəza inzibati-idarə sisteminin tətbiq olunması ilə "Erməni vilayəti"nin ləğv edilməsi və Şimali Azərbaycan ərazilərinin müxtəlif quberniyaların tərkibinə verilməsi ilə bu diyarın paraçalanmış vəziyyətə gətirilməsinin, bölgənin ənənəvi ərazi sistemindən məhrum olmasına gətirib çıxardığını tutarlı elmi faktlarla işıqlandırmaq;

- Quberniya və qəza inzibati-idarə sisteminin tətbiq olunmasından sonra şəhərlərin və kəndlərin daxili idarəçilik sistemində yeni inzibati orqanların yaradılmasının, azərbaycanlıların bu orqanlarda iştirak etməsini məhdudlaşdıran qadağaların qoyulmasının, çarizmin qeyri-xristian xalqlara qarşı tətbiq etdiyi milli-ayrıseçkilik siyasətindən irəli gəlməsinin mahiyyətini təhlil etmək;

- Rusiyanın Şimali Azərbaycanda yürütdüyü müxtəlif inzibati-ərazi siyasətinin ölkəmizin taleyi üçün törətdiyi fəsadları dəyərləndirmək.

**Dissertasiyanın metodoloji əsası.** Tədqiq olunan problemin araşdırılmasında tarixi yanaşma, tənqidi-analitik üsuldan, müqayisəli təhlil, tarixi gerçəkliklərin aydınlaşdırılmasında prosesləri doğuran səbəb və nəticələrin əlaqəsi metodundan istifadə edilmiş, dünya tarix elminin və Vətən tarixşünaslığının son nailiyyətləri nəzərə alınmışdır. Tədqiqatın gedişində istifadə olunmuş əsas üsul elmi araşdırmalarda geniş yayılmış müqayisəli təhlil metodudur.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya bəhs olunan mövzu üzrə Azərbaycan tarixşünaslığında ilk sistemli və bitkin addımlardan biri hesab edilə bilər. Tədqiqatda bir çox hallarda faktiki olaraq ilk dəfə:

- Şimali Azərbaycan xanlıqlarının ayrı-ayrılıqda rus işğalçılarına qarşı mübarizə formaları iqtisadi-siyasi şərait baxımından nəzərdən keçirilmiş və bu mübarizə formalarının fərqli və ümumi cəhətləri təhlil olunmuşdur;

- Şimali Azərbaycanda tətbiq olunan komendant idarəçiliyi sistemi ilə xanlıq üsul-idarəsinin oxşar və fərqli cəhətləri ətraflı və müqayisəli surətdə təhlil edilmişdir;

- Çarizmin Şimali Azərbaycanda tətbiq etdiyi inzibati-ərazi siyasətinin onun milli-müstəmləkə sisteminin üzvi tərkib hissəsi kimi maraqlarına cavab verməsinin ideoloji kökləri tutarlı elmi faktlarla izah edilmişdir;

- Çar Rusiyasının Şimali Azərbaycanın quberniya və qəzalarında tətbiq etdiyi müxtəlif daxili idarəçilik formalarının ümumi və fərqli cəhətləri təhlil edilmiş, bu idarəçilik formalarının çarizmin müstəmləkəçilik siyasətinə xidmət etməsinə aydınlıq gətirilmişdir;

- Şimali Azərbaycanda tətbiq olunan şəhər özünüidarə orqanlarında azər-

baycanlıların iştirak etməsinə qadağa qoyulması faktının çarizmin milli ucqarlarda tətbiq etdiyi müstəmləkəçilik siyasəti ilə bilavasitə əlaqəli olması elmi əsaslarla izah edilmişdir;

- Çar Rusiyasının Şimali Azərbaycanda yürütdüyü mürtəce-müstəmləkəçi inzibati-ərazi siyasətinin çox ağrılı fəsadları işıqlandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin təcrübi əhəmiyyəti onunla izah edilə bilər ki, dissertasiyada istifadə olunmuş faktiki materiallardan və əldə edilmiş nəticələrdən universitetlərin tarix fakültələrində "Çar Rusiyasının işğalından sonra Şimali Azərbaycanın tarixi ərazi sistemində aparılan dəyişikliklər (XIX-XX əsrin əvvəlləri)" mövzusunda ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərinin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında, elmi konfrans və seminarların keçirilməsində geniş istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsinin 28 oktyabr 2016-cı il tarixli iclasında müzakirə edilmiş və müdafiəyə buraxılmaq üçün məsləhət görülmüşdür. Dissertasiya işinin əsas məzmununu əhatə edən müddəaları müəllifin Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərdə çap olunmuş məqalələrində, həmçinin ölkənin elm ocaqlarında təşkil olunmuş elmi konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Qarşıya qoyulmuş tədqiqat vəzifələri ilə əlaqədar dissertasiya giriş, 3 fəsil, 7 yarımfəsil, nəticə və istifadə olunmuş mənbə və ədəbiyyatın siyahısından ibarətdir.

## II. DİSSETASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın xronoloji çərçivəsi, öyrənilmə səviyyəsi və mənbə bazası açıqlanır, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, elmi yeniliyi əsaslandırılır, nəzəri-metodoloji əsasları, praktiki əhəmiyyəti göstərilir, həmçinin dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

***"XIX əsrin I yarısında çar Rusiyasının Şimali Azərbaycanda apardığı inzibati-ərazi dəyişiklikləri"*** adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir. *"Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalının gedişində xanlıqlar sisteminin ləğvi və komendant üsul-idarəsinin tətbiqi"* adlanan birinci yarımfəsildə XIX əsrin əvvəllərində Şimali Azərbaycanın ənənəvi ida-

rəçilik və ərazi sistemində aparılan dəyişikliklər ilk növbədə çar hökumətinin müstəmləkəçilik siyasətinə xidmət etməsi vurğulanmışdır. Ermənilərin bu bölgəyə köçürülməsi də həmin siyasətin üzvi tərkib hissəsi idi. Hələ I Pyotrun dövründən başlayaraq XIX əsrin əvvəllərinə qədər rusların Cənubi Qafqaz ərazilərinə yürüşləri baş versə də, Səfəvi şahlarının müqaviməti, Quba xanı Fətəli xanın uzaqgörən siyasəti, Ağa Məhəmməd şah Qacarın qətiyyətli mübarizəsi sayəsində Şimali Azərbaycan torpaqları işğala məruz qalmadığından, onun ənənəvi inzibati-ərazi quruluşu və idarəçilik sistemi dəyişikliyə məruz qalmamışdır. XIX əsrin əvvəllərində baş verən işğallar isə çar Rusiyasına bölgənin idarəçilik sisteminə ciddi dəyişikliklər etməyə və bu sistemdə ən başlıca postlara xristianları, ilk növbədə isə rusları və erməniləri təyin etməyə əlverişli şərait yaratdı.

Rusiya işğalı ərəfəsində Şimali Azərbaycan ərazisi inzibati baxımdan xanlıqlara, sultanlıqlara, məlikliklərə və mahallara bölünmüşdü.[26] XVIII əsrin sonlarında general V.Zubovun dağıdıcı yürüşləri, fasiləsiz ara müharibələri, vahid siyasi və iqtisadi mərkəzin olmaması ölkəni gücdən salmış və ümumi inkişafı xeyli ləngitmişdi.[27] Şimali Azərbaycan xanlıqlara parçalanmış, vahid hakimiyyətin olmadığı bir ölkə idi. Şimali Azərbaycanın iqtisadi və siyasi əhəmiyyəti onun istilası uğrunda baş verən saysız-hesabsız müharibələrin əsas səbəbini təşkil edirdi. Ayrı-ayrı müstəqil xanlıqlar öz mövcudluqlarını qoruyub saxlamaq üçün zaman-zaman bölgədə bir-birinə qarşı duran imperiyaların himayəsinə sığınmağa məcbur olurdular.[28]

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı dövründən başlayaraq 1917-ci ilin fevral inqilabına qədər olan dövrdə bölgənin inzibati-əpazi quruluşunda baş verən dəyişikliklər çarizmin milli-müstəmləkəçilik siyasətinə uyğun olaraq həyata keçirilmiş, torpaqlarımız müxtəlif quberniya və qəzalaların tərkibində pərakəndə halda səpələnmişdi. Rusiya işğalı dövründə xanlıq üsul-idarə sisteminin ləğv olunması prosesi birdən-birə baş verməmiş, çarizmin ikiüzlü və riyakar siyasəti vasitəsilə tədricən həyata keçirilmişdir. Şimali Azərbaycan xanlıqları arasında Rusiyaya silahlı qüvvə tətbiq edilmədən ilhaq olunan xanlıqlarda işğalın birinci mərhələsində əvvəlki sistem və idarə aparatı saxla-

---

[26] Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə, s. 16.

[27]Yenə orada.

[28]Мирзоева С. Вопросы права человека на жизнь в Азербайджане в XIX-XX веках // Dirçəliş – XXI əsr. №1-2 (173-174), 2013, с. 371.

nılmışdı. Həmin xanlıqlar Qarabağ, Şəki, Şamaxı və Lənkəran xanlıqları idi.[29]

Beləliklə, işğal olunmuş ərazilərdə komendant idarəçilik üsulunun tətbiq olunması ilə yanaşı olaraq, xanlıqlara daxili idarəçilik hüququnun verilməsi ilə ənənəvi idarəçilik sitemi də nisbətən saxlanılmışdı. Yəni bu idarəçilik işi hərbi-xalq üsul-idarəsi sisteminə əsaslanıb, keçid idarəçilik sistemi kimi tətbiq olunmuşdu.

*"Erməni vilayəti"nin yaradılması"* adlanan ikinci yarımfəsildə ikinci Rusiya-Qacar müharibəsi nəticəsində İrəvan və Naxçıvan xanlıqları da işğal olunduqdan sonra həmin ərazilərə Qacarlar İranı və Osmanlı imperiyasından ermənilərin köçürülməsi işinə başlanılmış və qondarma "Erməni vilayəti" adlı inzibati ərazi vahidi təşkil olunması tədqiq olunur.

Rusiya çarı I Nikolay 1828-ci il mart ayının 20-də Turkmənçay müqaviləsini təsdiq etdi və bir gun sonra isə, yəni, martın 21-də Erməni vilayətinin yaradılması barədə fərman imzaladı. Fərmanda deyilirdi: "Farsla (Qacarlarla – E.Ə.) bağlanan traktata uyğun olaraq farsdan (Qacarlar İranından – E.Ə.) Rusiyaya birləşdirilmiş İrəvan və Naxcıvan xanlıqları bundan sonra bütün işlərdə Erməni vilayəti adlandırılsın və o, bizim titula daxil edilsin. Bu vilayətin quruluşu və onun idarə edilməsi qaydaları haqqında hökumət öz vaxtında lazımi gostərişlər alacaqdır".[30]

Çar Rusiyasının Qacarlar İranı və Osmanlı dövləti sərhədində yerləşən Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq üçün əsrlər boyu düşünülmüş və planlı şəkildə həyata keçirdiyi siyasəti artıq öz bəhrəsini verməyə başladı. Belə ki, işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində qeyri-qanuni şəkildə bu torpaqların yerli sakini olmayan, buraya yeni köçürülməkdə olan xristian etnosun – ermənilərin adı ilə adlandırılan bir inzibati qurum yaradıldı.

Beləliklə, Qafqazda ilk dəfə olaraq, həm də Şimali Azərbaycan torpağında ermənilərin fiziki-coğrafi ərazisi – Erməni vilayəti meydana gəldi. "Erməni vilayəti"nin yaradılmasından dərhal sonra buradakı idarəçilik sistemində kökündən dəyişikliklər baş verdi.

Yeni yaradılan "Erməni vilayəti" İrəvan və Naxçıvan əyalətlərinə və Ordabad dairəsinə bölünmüşdü. İrəvan əyaləti – İrəvan, Şərur, Sürməli və Sərdrarabad dairələrinə ayrılmışdı. İrəvan dairəsi Göyçə, Dərəçiçək, Qırxbulaq mahallarından, Şərur dairəsi Şərur, Vedibasar, Gərnibasar, Zəngibasar ma-

[29] Azərbaycan tarixi. Yeddi cilddə. IV cild, s. 94.
[30] ПСЗРИ, собр. первое, т. XXVII, с. 272-273; АКАК, т.VII, док. 437, с. 487.

hallarından, Sürməli dairəsi Sürməli, Dərəkənd-Parçenis, Sərdarabad dairəsi isə Saatlı, Talın, Seyidli-Ağsaqqallı, Abaran, Körpübasar və Sərdarabad mahallarından ibarət idi.[31]

*"Cənubi Qafqazda quberniya və qəza inzibati-idarə sisteminin yaradılması"* adlanan üçüncü yarımfəsildə çar Rusiyasının Cənubi Qafqazda quberniya və qəza inzibati-idarə sisteminə keçməsinin səbəbləri və yeni yaradılan inzibati vahidlərin məzmunu təhlil edilmişdir. Çar müstəmləkəçilərinin komendant üsul-idarəsi vasitəsilə yerlərdə müstəmləkə hakimiyyətini möhkəmlətmək ümidləri özünü doğrultmadı.[32]

Cənubi Qafqazın inzibati-ərazi bölgüsü Rusiyanın ali hakimiyyət orqanlarını qane etmirdi. Bu istiqamətdə tətbiq edilən islahatlar işğaldan əvvəlki qayda-qanunlara zərbə vursa da, onları kökündən ləğv edə bilməmişdi. Rusiyanın ali dairələri isə bölgənin idarə olunması işində yalnız öz qayda-qanunlarından istifadə etmək niyyətində idilər.[33]

Bu məqsədlə hazırlanmış inzibati-məhkəmə islahatının layihəsi "Cənubi Qafqaz diyarının idarə olunması üçün təsisatlar" adı altında 1840-cı il aprelin 10-da çar I Nikolay tərəfindən təsdiq olundu.[34] İslahata görə, Cənubi Qafqaz diyarında komendant üsul-idarəsi ləğv edildi və Rusiyanın daxili quberniyalarında tətbiq olunan inzibati idarəçilik sistemi yaradılmağa başlandı. İslahata müvafiq olaraq Cənubi Qafqaz diyarının baş idarəsi yaradıldı ki, onun da tərkibinə Cənubi Qafqaz qoşunlarının baş komandanı, Tiflis hərbi qubernatoru və Baş idarə Şurası daxil idi.[35] 1841-ci il yanvarın 1-dən etibarən islahat hər yerdə tətbiq olundu.

Cənubi Qafqaz diyarı mərkəzi Tiflis şəhəri olan və 11 qəzadan – Tiflis, Qori, Telav, Balakən, Kutaisi, Yelizavetpol, Aleksandropol, İrəvan, Naxçıvan, Ahalsıx və Quriya qəzalarından ibarət olan Gürcüstan-İmeretiya quberniyasına, mərkəzi Şamaxı olan, Şirvan əyaləti və Salyan torpaqları əraziləri hesabına yaradılan Şamaxı qəzasının da daxil olduğu, 7 qəzadan ibarət olan Xəzər vila-

---

[31] Шопен И. Исторический памятник состояния Арянской области в эпоху ее присоединения к Российской империи, с. 448.

[32] Mahmud İsmayıl. Azərbaycan tarixi. Bakı: "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 1997, s. 227.

[33] Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu – XIX yüzilliyin ortalarında), s. 314.

[34] Мильман А.Ш. Политический строй Азербайджана в XIX – начале XX веков, с. 111.

[35] ПСЗРИ, собрание второе, т. XII, с. 239.

yətinə bölündü.[36]

XIX əsrin 40-cı illərinin ikinci yarısında Cənubi Qafqazda yeni inzibati-ərazi dəyişiklikləri baş verdi, Şamaxı və İrəvan quberniyaları təşkil olundu. Yeni yaradılmış İrəvan quberniyasında ermənilərin say üstünlüyünün təmin olunması Qafqazda erməni dövlətinin yaradılması istiqamətində atılan ikinci addım olmuşdu.

Dissertasiyanın iki yarımfəsildən ibarət olan ikinci fəsli ***"XIX əsrin II yarısında çar Rusiyasının Şimali Azərbaycanda apardığı inzibati-ərazi dəyişiklikləri"*** adlanır. Fəsildə Rusiyanın müstəmləkəçilik maraqlarına tam cavab verməyən komendant üsul-idarəsinin ləgv edilməsindən sonra XIX əsrin II yarısında Şimali Azərbaycanda yeni inzibati-ərazi dəyişikliyinin aparılması, onların xüsusiyyəti, yaranma mərhələləri müəyyən edilmişdir.

II Fəslin *"Şimali Azərbaycanda yeni inzibati dəyişikliklərin aparılması"* adlanan birinci yarımfəslində XIX əsrin II yarısında çarizmin Şimali Azərbaycanda həyata keçirdiyi yeni inzibati dəyişikliklərin səbəbləri və onların həyata keçirilməsi təhlil edilmişdir. Çar Rusiyasının yeni idarəçilik sistemini tətbiq etməsi bir tərəfdən ucqarlarda ruslaşdırma siyasətini tətbiq etmək niyyətindən irəli gəlir, yerli feodalların və bəylərin imtiyazlarını əllərindən almaq məqsədinə xidmət edirdi.

1859-cu ildə Şamaxı güclü zəlzələnin baş verməsindən sonra quberniya mərkəzinin Bakıya köçürülməsinə qərar verilir. 1859-cu il dekabrın 22-də Bakı şəhərinə quberniya şəhəri dərəcəsi verilməsi ilə Şamaxı quberniyasının Bakı quberniyasına çevrilməsi artıq rəsmi şəkildə başa çatdı.[37]

Dağıstan və Şimali Qafqaz xalqlarının azadlıq mübarizəsi xeyli səngidikdən sonra, 1860-cı il mayın 5-də "Dağıstan vilayətinin idarəçiliyi haqqında Əsasnamə" tətbiq olundu. Əsasnaməyə görə, Dərbənd quberniyası ləğv olundu, Quba qəzası Bakı quberniyasının tərkibinə daxil edildi. Car-Balakən hərbi dairəsi "Yuxarı Dağıstanın hərbi rəisinə" tabe edilən Zaqatala hərbi dairəsi kimi yenidən təşkil olundu.[38] Çarizmin tətbiq etdiyi zorla xristianlaşdırma siyasətinə qarşı Zaqatala dairəsində baş verən 1863-cü il üsyanı amansızlıqla yatırıldıqdan sonra, Qafqaz komandanlığı əhali çıxışlarının qarşısını almaq

---

[36] Мильман А.Ш. Политический строй Азербайджана в XIX – начале XX веков, с. 111; İsayev Ə. Azərbaycanda inzibati idarəçilik (XIX – XX əsrin əvvəlləri), s.73, 99.

[37] Тагиев Ф.А. История города Баку в первой половине XIX века (1806-1859), с. 85-86.

[38] Azərbaycan tarixi. Yeddi cilddə. IV cild, s. 197.

üçün idarəçilik sistemini dəyişdirmək qərarına gəldi. 1864-cü ilin 25 aprel tarixli yeni Əsasnaməyə görə Zaqatala dairəsi məntəqə rəisləri tərəfindən idarə olunan 6 məntəqəyə bölündü. [39]1880-ci ildə Zaqatala dairəsinin tabe edildiyi Qafqaz Dağlı idarəsinin Qafqaz hərbi-xalq idarəsi adlandırılması ilə əlaqədar edilmiş bəzi inzibati dəyişikliklərə görə, Zaqatala dairəsi Balakən, Car-Muxax, Əlabad və Qax məntəqələrinə bölünərək, Qafqaz hərbi-xalq idarəsinə tabe edildi.[40] 1883-cü ildə Qafqaz komandanlığı tərəfindən həyata keçirilən növbəti inzibati dəyişikliklər nəticəsində dairədə mövcud olan hərbi-xalq idarə üsulu mülki idarəçiliklə əvəz edilmiş və Zaqatala dairəsi Tiflis quberniyasına tabe etdirilmişdi.[41]

1867-ci ildə Yelizavetpol quberniyasının təşkil olunması ilə Şimali Azərbaycan ərazisində yeni inzibati dəyişikliklər baş verdi. Yeni inzibati bölgü nəticəsində Ordubad, Borçalı, Sığnaq və Şuşa əraziləri müxtəlif quberniya və qəzaların arasında bölüşdürüldü. XIX əsrin 70-ci illərinin əvvəllərində Nuxa, Şuşa və Ordubad əraziləri hesabına bir sıra yeni qəzalar da təşkil olundu. Sahələrin ləğv olunması və qəzaların parçalanması hesabına onların sayı artdı. Lakin XIX əsrin 80-ci illərində tətbiq olunan islahatlar nəticəsində sahələr yenidən bərpa olundu.

Rusiyanın daxili quberniyalarına nisbətən Şimali Azərbaycanda şəhər Əsasnaməsinin daha gec tətbiq olunması da çarizmin müstəmləkəçilik siyasətinin məqsədlərindən irəli gəlirdi.

II Fəslin ikinci yarımfəsli *"İnzibati-ərazi siyasəti çarizmin milli-müstəmləkə sisteminin üzvi tərkib hissəsi kimi"* adlanır. Quberniya və qəza inzibati-idarə sisteminin tətbiq olunması ilə əslində komendant özbaşınalığına son qoyulmamış, sadəcə olaraq komendant özbaşınalığı polis özbaşınalığı ilə əvəz olunmuşdur. Yeni idarəçilik sisteminin tətbiq olunmasından sonra idarəçilik orqanlarında sabiq komendantların məsul vəzifələrə təyin olunmasını nəzərə alsaq, polis özbaşınalığının mövcud olması labüd hal idi. Əgər komendant idarəçiliyi sistemi hərbi-xalq üsul-idarəsinə əsaslanırdısa, quberniya və qəza inzibati-idarə sistemi mülki və polis idarəçiliyi orqanlarını özündə birləşdirən, bürokratik inzibati cəza aparatının digər bir forması idi.

Qafqaz admininstrasiyasının sərbəst surətdə fəaliyyət göstərməsindən

[39] Məmmədov Ə. Şimal-Qərbi Azərbaycan Zaqatala dairəsi, s. 21, 22.
[40] Məmmədov Ə. Şimal-Qərbi Azərbaycan Zaqatala dairəsi, s. 22.
[41] ARDTA, f. 484, s. 1, iş 1, v. 2.

narahat olan çar hökuməti 1881-ci ildə Qafqaz canişinliyini ləğv etdi və onun səlahiyyətləri Qafqaz mülki hissəsi baş rəisinin əlinə keçdi. Lakin XX əsrin əvvəllərində imperiya ərazisində baş qaldıran milli-azadlıq mübarizəsi və onun daha geniş əraziləri əhatə etməsi çarizmi 1905-ci ildə Qafqaz canişinliyi sistemini yenidən bərpa etməyə məcbur etdi. Qafqaz canişinliyinin bərpa olunması ilə quberniyalarda müvəqqəti general-qubernatorluq təsisatları da yaradıldı və onlara geniş səlahiyyətlər verildi.

Dissertasiyanın *"Şimali Azərbaycanda inzibati-ərazi quruluşu XX əsrin əvvəllərində"* adlanan üçüncü fəsli iki yarımfəsildən ibarətdir. Fəslin birinci yarımbölməsi *"Quberniyadaxili və qəzadaxili dəyişikliklər"* adlanan I yarımfəsildə XX əsrin əvvəllərində Şimali Azərbaycanın inzibati-idarə sistemində baş verən dəyişikliklər tədqiq olunmuşdur. 1905-ci il fevralın 26-da Qafqazda canişinlik sistemi bərpa olundu. 1905-ci ilin fevralında Bakı quberniyasında, həmin ilin sentyabrında isə Yelizavetpol quberniyasında hərbi vəziyyət tətbiq edildi. Yelizavetpol quberniyasında iki müvəqqəti general-qubernatorluq yaradıldı. Bunlardan biri Zəngəzur, Cavanşir, Cəbrayıl və Şuşa qəzalarını, digəri isə başqa qəzaları əhatə edirdi.[42]

1906-cı il 28 oktyabr tarixli fərmanla Bakı şəhəri, ona bitişik olan neftmədən və fabrik-zavod rayonlarının idarə olunması üçün Bakı qradonaçalnikliyi yaradıldı. O, Bakı sənaye rayonunda inzibati-polis idarəçiliyini həyata keçirirdi.[43]

1906-cı ilin sonunda Bakı şəhərində hərbi vəziyyət fövqəladə mühafizə vəziyyəti ilə əvəz olundu, Bakı müvəqqəti genel-qubernatorluğu ləğv edildi.[44] Bakı sənaye rayonunda Bakı qradonaçalnikliyi yaradıldığı üçün müvəqqəti-general qubernatorluq təsisatının ləğv edilməsi çar hökumətini narahat etmirdi. Bakı qradonaçalnikliyi öz fəaliyyətində neft sənaye burjuaziyası ilə çar hökumətinin fəhlələrə qarşı zidd siyasətini tətbiq etdiyindən, neft-mədən və fabrik-zavod rayonlarında zəhmətkeş əhaliyə qarşı əvvəlki təzyiq kampaniyası öz qüvvəsində qalmışdı.[45]

Xalq kütlələrini milli-azadlıq mübarizəsindən yayındırmaq üçün Qafqaz canişini Vorontsov-Daşkov tərəfindən irəli sürülən zemstvo islahatı layihəsi də tətbiq olunmamış qaldı. Azərbaycan milli burjuaziyası nümayəndələrinin şəhər

---

[42] Мильман А.Ш. Политический строй Азербайджана в XIX – начале XX веков, с. 247.
[43] Azərbaycan tarixi. Yeddi clddə. V cild, s. 101.
[44] Yenə orada, s. 102.
[45] Azərbaycan tarixi. Yeddi cilddə. V cild, s. 102.

özünüidarə orqanlarında iştirakı məsələsinə gəldikdə isə onlar yalnız şəhər sadələşdirilmiş ictimai idarələrin bəzi orqanlarında iştirak etmək hüququnu əldə edə bilmişdilər.

*"Fevral inqilabı ərəfəsində Şimali Azərbaycanın inzibati-ərazi quruluşu. Çarizmin yüzillik inzibati-ərazi siyasətinin başlıca yekunları"* adlanan ikinci yarımfəsildə Fevral inqilabı ərəfəsində Şimali Azərbaycanın inzibati ərazi quruluşu və çarizmin yüz il ərzində tətbiq etdiyi inzibati-ərazi siyasəti ümumiləşdirilmişdir. Qeyd olunmuşdur ki, çarizmin tətbiq etdiyi müxtəlif idarəçilik üsulları – hərbi-xalq, mülki-polis sistemi öz xarakterinə görə sərt inzibati cəza metodlarına əsaslanan, bürokratik aparatın bölgədə alovlanan milli-azadlıq mübarizəsinə qarşı yönəldilmiş siyasətini həyata keçirmişdi. Bunların arasında jandarmeriya idarəçiliyi sistemi daha sərt xarakterə malik olub, kütlələri daim təzyiq altında saxlamaq siyasətinə xidmət edirdi.

Beləliklə, Rusiya işğalının gedişində və işğaldan sonra çarizmin Şimali Azərbaycanın tarixi ərazi sistemində apardığı dəyişikliklər nəticəsində Vətənimizin şimal torpaqları Cənubi Qafqazın ayrı-ayrı quberniyalarının tərkibinə parçalanmış vəziyyətə düşmüş, inzibati idarəçilikdə aparılan islahatlar nəticəsində azərbaycanlıların inzibati orqanlarındakı iştirakına məhdudiyyətlər qoyulmuş, xalqımızı öz milli kökü ilə bağlı olan ənənələrdən uzaqlaşdırmağa səy göstərilmişıdir. Bütün bunlar çar hökumətinin ucqarlarda yaşayan qeyri-xristian xalqlara qarşı tətbiq etdiyi milli-ayrıseçkilik və müstəmləkəçilik siyasətinin acı təzahürləri idi.

Şimali Azərbaycanda çar Rusiyasının inzibati-ərazi siyasətinin ən mənfur və acı nəticəsi bundan ibarət olmuşdur ki, uzun onilliklər ərzində dövlətçilik ənənələrimizə son qoyulmuş, əzəli Azərbaycan torpaqları başqa dövlətlərin tərkibinə qatılmış, doğma yurdumuzun dilbər guşəsində – İrəvan bölgəsində ermənilərə dövlət yaradılmışdır.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə olunmuş əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək ümumiləşdirilmişdir

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Çarizmin Azərbaycanda yaratdığı "Erməni vilayəti" ində inzibati idarəçilik sisteminə dair //Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universiteti. Qafqaz tarixinin aktual məsələləri beynəlxalq konfrans. 15-16 oktyabr 2015-ci il. I hissə. Gəncə: 2015, s. 159-163.

2. Завоевание Россией Иреванского ханства и создание “Армянской области” //Начиональыний педагоричний Университет имени М.П.Драгоманова ВГО Украйнсыка Академия Наук. Гилея. Науковий висник. Випуск 91(№12). Кийев: 2014, с. 161-165.
3. Rus işğalının birincı mərhələsindən sonra Şimali Azərbaycan xanlıqlarının idarə olunması sistemində aparılan dəyişikliklər. //Tarix və onun problemləri Nəzəri, elmi Metodik jurnal №1. Bakı: 2015, s. 91-97.
4. XIX əsrin ikinci yarıcında ,ar Rusiyasının Şimali Azərbaycanda yeni inzibati-ərazi dəyişikliklərinə dair. //Geostrategiya №05(29) sentyabr-oktyabr. Bakı: 2015, s. 49-52.
5. II Rusiya İran müharibəsi və “Erməni vilayəti”nin yaradılması. // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası №1, 2015, s. 177-183.
6. XX əsrin əvvəllərində Şimali Azərbaycanda quberniya və qəza daxili dəyişikliklərin aparılmasına dair. //Bakı Avrasiya Universiteti “Sivilizasi”-ya jurnalı, № 2. Bakı: 2016, s. 189-196.

Э.З.Алиев

**Изменения в исторической территориальной системе Северного Азербайджана после его оккупации царской Россией (в XIX-начале XX вв.)**

**Резюме**

В диссертации исследуются административно-территориальные изменения, которые проводились царской Россией на исторических землях Северного Азербайджана в XIX-начале XX вв. Во *«Введение»* диссертации обоснована актуальность темы, определены её хронологические рамки, рассмотрены степень изученности и источниковая база проблемы, цели и задачи исследования, научная новизна темы, методологическая основа, теоретическое и практическое значение, степень апробации исследования, дается информация о её структуре.

Первая глава диссертации *«Административно-территориальные изменения, произведенные царской Россией в Северном Азербайджане в первой половине XIX века»* состоит из трех параграфов. В этой главе рассматриваются причины, по которым, в ходе и после оккупации северо-азербайджанских ханств, царская Россия произвела в них административно-территориальные изменения, выявлены различные особенности вновь созданных административно-территориальных единиц.

Вторая глава диссертации *«Административно-территориальные изменения, произведенные царской Россией в Северном Азербайджане во второй половине XIX века»* состоит из двух параграфов. В них раскрываются основные причины проводимых в это время царским правительством административно-территориальных реформ, которые носили колониальный характер.

Третья глава диссертации *«Административно-территориальная структура Северного Азербайджана в начале XX века»* состоит из двух параграфов. В главе рассматриваются изменения, происходившие в административно-управленческой системе Северного Азербайджана в начале XX века, а также анализируются административно-территориальная структура Северного Азербайджана накануне Февральской революции и результаты административно-территориальной политики царизма за последние сто лет.

В **«Заключение»** диссертации обобщены основные научные и теоретические результаты, полученные в ходе исследования.

E.Z.Aliyev

## Changes in historical territorial system of Northern Azerbaijan after the occupation by tsarist Russia (the 19th – early 20th centuries)


### Summary

The dissertation investigates the administrative-territorial changes carried out in the 19th-early 20th centuries in the historical territories of North Azerbaijan by tsarist Russia. In the *"Introduction"* of the dissertation the relevance of the subject is grounded, the chronological framework of the research, the level of studying and the source database are determined, the goals and objectives of the research are identified, the scientific innovation is justified. Moreover, it provides with the information on the oretical and methodological basis, practical significance, as well as the approbation and structure of the dissertation.

The first chapter of the dissertation titled as *"Administrative-territorial changes made by tsarist Russia in Northern Azerbaijan in the 1st half of the 19th century"* consists of three semi-chapters. The reasons for changes of the existing administrative territorial units in the country in the course of occupation of Northern Azerbaijan khanates by tsarist Russia and after it, and the distinctive features of newly established administrative-territorial units have been clarified in this chapter.

In the second chapter consisting of two semi-chapters and titled as *"Administrative-territorial changes made by tsarist Russia in the Northern Azerbaijan in the 2nd half of the 19th century"* have been clarified the reasons for the tsarist Russia's administrative-territorial reforms in Northern Azerbaijan in the 2nd half of the 19th century and that the administrative changes were part of the tsarism's colonial policy.

The third chapter of the dissertation entitled as *"Administrative-territorial structure in Northern Azerbaijan in the 20th century"* consists of two semi-chapters. The changes taken place in the administrative-management system of Northern Azerbaijan in the early 20th century and the administrative-territorial policy implemented by tsarism over a hundred years have been analyzed in this chapter.

The main scientific and theoretical conclusions drawn during the research have been systemized and summarized in the *"Conclusion"*.

**НАЦИОНАЛНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ИСТОРИИ ИМ. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**ЭЛЬМИР ЗАКИР оглу АЛИЕВ**

# ИЗМЕНЕНЕИЯ В ИСТОРИЧЕСКОЙ ТЕЕРРИТОРИАЛЬНОЙ СИСТЕМЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА ПОСЛЕ ЕГО ОККУПАЦИИ ЦАРСКОЙ РОССИЕЙ (XIX-начало XX вв.)

**Специальность: 5503.02 – Отечественная история**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени
доктора философии по истории**

**БАКУ - 2018**